Zərifə Əliyeva – 100

# Dünya şöhrətli azərbaycanlı oftalmoloq

**Martın 6-da AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illik yubileyinə həsr edilmiş “Dəyişən dünyada qadın: Şərq və Qərb baxışı” mövzusunda beynəlxalq elmi konfransın açılışı olub.**



Konfransı AMEA-nın Şərqşünaslıq İnstitutu Misir Ərəb Respublikası Bint Bələd qubernatorluğu Qadınlar Cəmiyyəti, Rusiya Federasiyası Tarix, İqtisadiyyat və Hüquq Elmi-Tədqiqat İnstitutu, Qazaxıstan Respublikası Təhsil və Elm Nazirliyi R.B.Süleymenov adına Şərqşünaslıq İnstitutu, İraq Strateji Araşdırmalar Mərkəzi və Çin Xalq Respublikasının Hebey Universiteti ilə birgə təşkil edib.

Məclisdə Azərbaycan, Qazaxıstan, Misir, Mərakeş, İraq, Livan, Malayziya, Çin, Ukrayna, Rusiya və Belarusdan ümumilikdə 170-ə yaxın alim iştirak edir.

Konfransın açılışında çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Azərbaycan Respublikası Prezidentinin “Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncamını xatırladaraq, ölkəmizdə, o cümlədən AMEA-da bir sıra tədbirlər keçirildiyini bildirib. Akademik Zərifə Əliyevanın ölkəmizdə göz xəstəliklərinin diaqnostika və müalicəsindəki mühüm xidmətlərindən danışan akademik İsa Həbibbəyli görkəmli alimin gözün peşə və irsi xəstəliklərinə, sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə dair fundamental tədqiqatları olduğunu vurğulayıb. AMEA-nın vitse-prezidenti, Şərqşünaslıq İnstitutunun baş direktoru akademik Gövhər Baxşəliyeva görkəmli alim-oftalmoloq Zərifə Əliyevanın səhiyyə tarixində əvəzedilməz yeri, oftalmologiya sahəsində geniş elmi axtarışları olduğunu qeyd edib, bu zərif və zəkalı xanımın timsalında ideal qadın obrazının canlandığını deyib.

Daha sonra konfransın təşkilatçıları olan xarici elmi və ictimai qurumların nümayəndələrinin videoçıxışları təqdim edilib.

Rusiya Federasiyası Tarix, İqtisadiyyat və Hüquq Elmi-Tədqiqat İnstitutunun prezidenti, tarix üzrə elmlər doktoru, professor İqor Turitsın, Misir Ərəb Respublikası Bint Bələd qubernatorluğu üzrə Qadınlar Cəmiyyətinin vitse-prezidenti, professor Əmirə Əbdulhəkim, Qazaxıstan Respublikası Elm və Ali Təhsil Nazirliyinin Elm Komitəsinin R.B.Süleymenov adına Şərqşünaslıq İnstitutunun direktor müavini, iqtisad elmləri doktoru Duysen Qalımjan akademik Zərifə Əliyevanın dünya oftalmalogiya elminə samballı töhfələrindən danışıblar.

Elmi məclisdə AMEA Qadınlar Şurasının sədri, professor Rəna Mirzəzadə “Birinci vitse-prezidentliyə gələn yol və gender siyasəti”, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini filologiya üzrə fəlsəfə doktoru Qəmər Cavadlı “İslamda qadın hüquqları və gender bərabərliyi”, Asiya Fəlsəfə Assosiasiyasının vitse-prezidenti, AMEA-nın müxbir üzvü, fəlsəfə üzrə elmlər doktoru Könül Bünyadzadə “Qadına fəlsəfi baxış” mövzusunda məruzələr ediblər.

Daha sonra konfransın bölmə iclasları keçirilib. Konfransa bu gün yekun vurulacaq.

**“Xalq qəzeti”**